# FƏRZƏLİYEV PƏHLİVAN ƏHLİMAN OĞLU



Fərzəliyev Pəhlivan Əhliman oğlu 27 sentyabr 1958-ci ildə Füzuli rayonunun Qobu Dilağarda kəndində doğulmuşdur. Doğma kənddə səkkizinci sinfi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. O, texnikumda oxuduğu illərdə idmanın sərbəst güləş növü ilə məşğul olurdu. Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanmışdı. O, 1979-cu ildə ordu sıralarına çağırılır. Hərbi xidmətdən tərxis olunduqdan sonra isə Qazaxıstanın Aktyubinsk şəhərinə gedir və orada daxili işlər orqanlarında işə başlayır. O, təhsilini davam etdirməyi də unutmur. Sənədlərini Orenburq Politexnik Universitetinə verir. 1986-cı ildə universitetin avtomobil nəqliyyatı fakültəsini bitirir, 4 il Aktyubinsk şəhər Daxili İşlər Orqanlarında çalışır. O, 1990-cı ildə baş leytenant rütbəsində Vətənə dönür. Bir az sonra onu Füzuli rayon DİŞ-də növbətçi inspektor vəzifəsinə təyin edirlər. Sonra Füzuli rayon DİŞ-də post-patrul rotası yaradılır. 1991-ci ilin mart ayında o, rotanın 3-cü taqımına komandir təyin olunur. Yaxşı xidmətinə görə ona ikinci bir vəzifə - BTR-in ekipaj komandiri vəzifəsi etibar edilir. Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında o, taqımı ilə birgə mərdliklə döyüşmüş, Xələfşə kəndində bir qrup erməni yaraqlısı və bir BTR məhv edilmişdi. 1992-ci il aprel ayının 11-də Qacar kəndi uğrunda gedən ağır döyüşlərdə düşmən postunu ələ keçirərkən PDM-dən atılan mərmidən baş leytenant qəhrəmancasına həlak oldu. Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilmişdir. Evli idi. İki oğlu, bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır.